# Allah cənnət və cəhənnəmi yaradanda Cəbrayılı (Allahın salamı onun üzərinə olsun)

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: "Allah cənnət və cəhənnəmi yaradanda Cəbrayılı (Allahın salamı onun üzərinə olsun) cənnətə göndərdi və dedi: "Ona və onun əhli üçün orada nə hazırladığıma bax". Cəbrayıl ona baxdı və qayıdaraq dedi: "İzzətinə and olsun ki, onu eşidən ora daxil olmaq istəyəcək". Sonra Allah cənnəti nəfsin sevmədiyi şeylərlə əhatə edilməsini əmr etdi və dedi: "Get, ona və onun əhli üçün orada nə hazırladıqlarıma bax". O gedib baxdı və cənnətin nəfsə ağır və çətin gələn əməllərlə əhatələndiyinü gördü və: "İzzətinə and olsun ki, ora kimsənin daxil olmayacağından qorxuram" - dedi. Allah buyurdu: "Get, cəhənnəmə və orada onun əhli üçün hazırladıqlarıma bax". Gedib cəhənnəmə baxanda onun bir hissəsinin digər hissəsinin üstünə çıxdığını gördü. Geri döndü və dedi: "İzzətinə and olsun ki, heç kəs ora girməyəcək". Sonra Allah cəhənnəmin şəhvətlərlə əhatələnməsini əmr etdi və dedi: "Qayıt və ona bax". Cəbrayıl cəhənnəmin şəhvətlərlə əhatələndiyini gördü və qayıdıb dedi: "İzzətinə and olsun ki, bir nəfər belə qalmayıb hər kəsin ora girəcəyindən qorxuram".

[Həsən] [Əbu Davud, Ət-Tirmizi,Ən-Nəsai rəvayət etdi]

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Allah cənnəti yaradan zaman Cəbrayıla (Allahın salamı onun üzərinə olsun) deyir ki: "Cənnətə get və ona bax." Cəbrayıl cənnətə baxır sonra qayıdır. Cəbrayıl deyir: Ey Rəbbim, İzzətinə and olsun ki, cənnəti və onda olan neməti, ikram və xeyirləri eşidən hər kəs ora daxil olmaq istəyəcək və onun üçün əməl edəcək. Sonra Allah cənnəti nəfsin sevmədiyi şeylər və həmçinin əmrləri yerinə yetirmək, qadağalardan çəkinmək kimi çətinliklər ilə əhatələdi və ora daxil olmaq istəyənin, nəfsin sevmədiyi bu çətin yollardan keçməsini istədi. Cənnət sevilməyən şeylərlə əhatələndikdən sonra izzət və cəlal sahibi olan Allah dedi: Ey Cəbrayıl, get, cənnətə bax (Cəbrayıl) getdi, ona baxdı, sonra qayıdaraq dedi: Ey Rəbbim, İzzətinə and olsun ki, onun yolundakı çətinliklər və şiddətlər səbəbiylə heç kimsənin ora daxil olmamasından qorxuram. Allah cəhənnəmi yaratdıqda dedi: Ey Cəbrayıl, get ona da bax. (O da) gedib baxdı. Sonra qayıdaraq dedi: Ey Rəbbim, izzətinə and olsun, cəhənnəmdəki əzabı, sıxıntı və cəzanı eşidən heç bir kəs ora daxil olmaq istəməz və ona aparan yollardan uzaq durar. Sonra Allah cəhənnəmi şəhvətlərlə əhatələyib, ona aparan yolları şəhvət və ləzzətlərlə etdi. Sonra dedi: "Ey Cəbrayıl, get ona bax". Cəbrayıl gedib cəhənnəmə baxdı və gəlib dedi: İzzətinə and olsun ki, o şəhvətlər və ləzzətlərlə əhatələndiyindən bir nəfərin belə ondan xilas olmayacağından qorxuram və narahatam.